## *BAŞ REDAKTORDAN*

UOT 37.

***Akif Nurağa oğlu Abbasov***
*pedaqogika üzrə elmlər doktoru, professor, əməkdar müəllim*

# TƏHSİL, TƏRBİYƏ, TƏLİM VƏ MƏKTƏBİN İDARƏ EDİLMƏSİ HAQQINDA ELM

***Акиф Нурага оглы Аббасов***
*доктор наук по педагогике, профессор, заслуженный учитель*

# НАУКА ОБ ОБРАЗОВАНИИ, ВОСПИТАНИИ, ОБУЧЕНИИ И УПРАВЛЕНИИ ШКОЛОЙ

***Akif Nuragha Abbasov***
*doctor of sciences in pedagogy, professor, honored teacher*

# SCIENCE OF EDUCATION, UPBRINGING, TRAINING AND SCHOOL MANAGEMENT

**Xülasə:** Məqalədə şəxsiyyətin təhsili, tərbiyəsi, təlimi və məktəbin idarə edilməsi haqqında elm statusunu qazanmış pedaqogikanın əsas məsələləri diqqət mərkəzinə gətirilir.

Hər hansı elm haqqında danışılarkən hər şeydən əvvəl aşağıdakı suallara cavab tapmaq tələb olunur: bu elm nə zaman meydana gəlib, necə inkişaf edib və onun tədqiqat mövzusunu nə təşkil edib və edir? Məqalədə həmin suallara cavab verilir.

***Açar sözlər:*** *təhsil, tərbiyə, təlim, məktəbin idarə olunması, pedaqogika elm kimi*

**Резюме:** В статье рассматриваются основные вопросы педагогики, получившие научный статус об образовании, воспитании, обучении и управлении школой. Говоря о любой науке, необходимо прежде всего найти ответ на следующие вопросы: когда возникла данная наука,как развивалась развивалась, что составляет и составляло его исследовательскую тему? В данной статье можно найти ответ на все эти вопросы.

***Ключевые слова:*** *образование, воспитание, обучение, управление школой, педагогика как наука*

**Summary:** The article discusses the main issues of pedagogy that have received the scientific status of education, upbringing, training and school management. Speaking of any science, it is necessary first of all to find the answer to the following questions: when did this science arise, how did it develop, what was and was its research topic? In this article, you can find the answer to all these questions.Keywords: education, education, training, school management, pedagogy as a science

***Keywords:*** *education, upbringing, training, school management, pedagogy as a science*

Bu və ya digər elm haqqında danışılarkən hər şeydən əvvəl aşağıdakı suallara cavab tapmaq tələb olunur: bu elm nə zaman meydana gəlib, necə inkişaf edib və onun tədqiqat mövzusunu nə təşkil edib və edir?

Barəsində söz açılan elmin elmlər sistemində rolunun və yerinin müəyyənləşdirilməsi də az əhəmiyyət daşımır. Bu, bir həqiqətdir ki, biliyin hər hansı sahəsi o vaxt elm kimi çıxış edir ki, ona ictimai tələbat olsun və yerinə yetirməli olduğu səciyyəvi vəzifələrə, özünəməxsus tədqiqat predmetinə malik olsun.

Yuxarıda üzərində dayandığımız bütün məsələlər pedaqogika elminə də aiddir. Vaxtilə (hətta hazırda da) bəziləri pedaqogikaya elm kimi yanaşmırdılar. K.D. Uşinski pedaqogikanı elm deyil, sənət kimi qələmə verirdi. O, bu xüsusda yazırdı: "Elm ancaq hazırda mövcud olan

və keçmişdə mövcud olmuş hadisə və şeyləri öyrənir, sənət isə bu vaxta qədər olmayan şeyləri yaratmağa cəhd edir və onun yaradıcılığının məqsədi və idealı gələcəyə istiqamət almışdır. Əlbəttə, hər bir sənətin özünün n ə z ə r i y y ə s i ola bilər, lakin sənətin nəzəriyyəsi elm deyildir. Bu nəzəriyyə artıq mövcud olan hadisə və münasibətlərin qanununu şərh etmir, o, əməli fəaliyyət üçün qaydalar təklif edir və bu qaydalar üçün əsası elmdən götürür" (1, 77)

K.D. Uşinskinin qənaətincə, "nə siyasət, nə təbabət, nə də pedaqogika ciddi mənada elm adlandırıla bilməz; bunların məqsədi insan iradəsindən asılı olmayan şeyləri öyrənmək deyil, əməli fəaliyyəti öyrənməkdir, yenə də insan iradəsindən asılı olmayan, keçmiş və hazırki vəziyyəti deyil, gələcəyi öyrənməkdir – ona görə də bunlar sənətdir" (1, 77).

K.D. Uşinski pedaqogikanı elm kimi qəbul etməsə də, bu elmin nəzəriyyəsinə, başlı a məsələlərinə dair qiymətli fikirlər irəli sürmüş, təlim və tərbiyənin son dərəcə zəruri problemlərini həll etmişdir. O, pedaqogikanı sənət adlandırsa da, rus pedaqogika elminin banisi hesab edilir.

Pedaqogika elmdir, yoxsa sənət? Gəlin diqqət yetirək: elm dedikdə, təbiət, cəmiyyət və təfəkkürün obyektiv inkişaf qanunlarına, bəşəriyyətin tarixən qazandığı biliklər sistemi və bu biliklər əsasında yeni qanunların kəşf olunması, nəzəriyyələrin irəli sürülməsi məqsədilə həyata keçirilən fəaliyyət başa düşülür.

Bu mənada pedaqogika da elmdir. Onun da öz qanun və qanunauyğunluqları, nəzəriyyələri vardır. Pedaqogikanın elm olduğunu necə sübuta yetirmək olar? Vahid elmin bu və ya digər sahəsi onun digər sahələrindən bir neçə əlamətinə görə fərqlənir. Buraya daxildir: a) elmin hər hansı sahəsinin özünəməxsus tədqiqat obyekti və ona uyğun olan predmeti vardır; b) elmin hər hansı sahəsi öz obyektini öyrənmək üçün xüsusi tədqiqat metodlarına malikdir; c) elmin hər hansı sahəsinin tədqiqat obyektinə uyğun anlayışlar sistemi mövcuddur.

Pedaqogikanı elmin başqa sahələrindən fərqləndirən, yaxud digər sahələrinə yaxınlaşdıran əlamətlər mövcuddur. Pedaqogikanın özünəməxsus tədqiqat obyekti vardır. Bu onu digər elmlərdən fərqləndirən əsas əlamətlərdən biridir. Həmin obyekt bəşəriyyətin qazandığı təcrübəni gənc nəslə çatdırmağın səciyyəvi xüsusiyyətləri ilə müəyyən edilir. Təcrübənin ötürülməsinin qanun və prinsipləri, səmərəli yolları başqa bir elm üçün deyil, məhz pedaqogika elmi üçün səciyyəvi obyektdir. Bu obyektdə (təcrübənin ötürülməsi gedişində) mövcud olan qanunlar, qanunauyğunluqlar, prinsip və metodlar, təhsil, tərbiyə, təlim və s. məhz pedaqogikanın anlayışlar sistemi kimi qəbul edilir.

Pedaqogika elmi öz obyektini öyrənmək məqsədilə müşahidə, müsahibə, sorğu, söhbət, anketləşdirmə, sənədlərin və yaradıcılıq məhsullarının öyrənilməsi, eksperiment və s. bu kimi tədqiqat metodlarından faydalanır.

Pedaqoqların qənaətincə, elmin obyekti, gerçəkliyin müvafiq sahəsindən, predmeti isə bu sahənin müəyyən tərəflərindən ibarətdir.

Pedaqogikanın obyekti dedikdə, onun tədqiq etdiyi gerçəkliyin sahəsi başa düşülür. Bəzi "Pedaqogika" dərsliklərində pedaqogika tərbiyə haqqında elm kimi nəzərdən keçirildiyindən, pedaqogikanın tədqiqat predmeti kimi də tərbiyə götürülür. Diqqət yetirək: Pedaqogikanın predmeti "insanın insan tərəfindən tərbiyə olunmasıdır" (S.P. Baranov), «tərbiyəvi fəaliyyətdir» (V.V. Krayevski), «xüsusi təşkili olunmuş tərbiyə sahəsidir» (İ.F. Xarlamov), "cəmiyyətin xüsusi funksiyası kimi insanın tərbiyə olunmasıdır" (Y.K. Babanski). Belə mövqe məqbul hesab edilə bilməz. Əslində pedaqogikanın predmeti şəxsiyyətin təşəkkülü qanunauyğunluqlarının öyrənilməsi və pedaqoji prosesin səmərəli təşkilinə yardımçı olan bu və ya digər məsələlərin araşdırılmasıdır.

K.D. Uşinski, İ.P. Podolski, Y.K. Babanski, N.İ. Boldıryev, Q.M. Afonina, T.A. İlina və b.-nın iddia etdikləri kimi, pedaqogika heç də yalnız tərbiyə haqqında deyil, təlim, təhsil və tərbiyə haqqında elmdir.

Bir zamanlar pedaqogikanı pedaqoji psixologiya, hətta pedologiya ilə əvəz etmək istəyiblər. Həmin dövr pedaqogikanın inkişafının empirik səviyyəsi dövrü kimi nəzərdən keçirilə bilər.

K.D. Uşinskinin pedaqogika ilə bağlı irəli sürdüyü fikirlər birtərəflidir. Onun dediklərinin əksinə olaraq, pedaqogika təkcə «əməli fəaliyyəti» öyrənmir, təkcə «gələcəyi» deyil, həm də «keçmişi və hazırkı vəziyyəti» öyrənir.

K.D. Uşinskinin belə bir qənaəti ilə də razılaşmaq çətindir ki, "sənətin nəzəriyyəsi elm deyildir" (1, 77). İnkaredilməz həqiqətdir ki, sənətin nəzəriyyəsi əslində elmdir, bu nəzəriyyə formalaşıb. Hazırda «sənətşünaslıq» elm kimi etiraf olunur.

Pedaqogika bir elm olmaq etibarilə xüsusi anlayışlar sisteminə malikdir. Əsas pedaqoji anlayışlar bunlardır: təhsil, təlim, tərbiyə.

Təlim müəllim və şagirdlərin qarşılıqlı fəaliyyətinin xüsusi təşkil edilmiş, məqsədyönlü, sistemli və idarə olunan prosesi olub bu zaman bilik, bacarıq və vərdişlərin mənimsənilməsi baş verir, məktəblilərin təhsili, tərbiyəsi və inkişafı həyata keçir.

Təhsil sistemli bilik, bacarıq və vərdişlərə, təfəkkür üsullarına yiyələnmənin məqsədyönlü prosesi və nəticəsi olub, böyüyən nəslin həyata, əməyə və ijtimai fəaliyyətə hazırlanmasına xidmət göstərir.

Afina məktəblərinə aid idi: qrammatika mütəxəssisi (savadın əsasları) məktəbi, kifar məktəbi (musiqi, nəğmə, şeir demək), palistra məktəbi (gimnastika, beşnövçülük), gimnastika (əsilzadələr üçün; fəlsəfə, ədəbiyyat, siyasət), exibiya (əsilzadələr üçün; siyasət, qanunlar, peşə hərbi hazırlıq kursu). Ümumilikdə, Afinada təhsil kübar xarakteri daşıyırdı. Təhsil haqqını yalnız çox varlı adamlar ödəyə bilirdilər. Qulların uşaqları üçün yalnız fiziki əmək nəzərdə tutulurdu.

Afinada fəlsəfə, riyaziyyat, təbiyyat, incəsənət, tarix, heykəltəraşlıq və s. elmlər xeyli inkişaf etmişdi.

Qrammatika və kifara-musiqi məktəbləri xüsusi şəxslər tərəfindən təşkil olunurdu. Təhsil pullu idi. Bəzən aşağı təbəqənin (demosun) övladları da bu məktəblərə qəbul edilirdi. Adları çəkilən təhsil ocaqlarında şagirdləri didaskalmüəllim (didasko – öyrədirəm deməkdir, didaktika, başqa sözlə, təhsil və təlim nəzəriyyəsi anlayışları da buradan meydana gəlmişdir) zəruri bilik və bacarıqlara yiyələnirdilər.

Uşaqlar 13-14 yaşlarında iki-üç illik idman (palestra) məktəbində oxumağa başlayırdılar. Bu tipli tədris müəssisələrində təhsil alanda güləşmək, qaçmaq, tullanmaq, üzgüçülük, ox və nizə atmaq, qılınc oynatmaq və s. buna bənzər bacarıqlar yaradılırdı. Sonradan onlar öz təhsillərini gimnaziyada davam etdirir, bu təhsil müəssisəsində siyasət, fəlsəfə, ədəbiyyat və s. bu kimi fənlər üzrə məşğələlər keçir, bütün bunlarla yanaşı dövlət idarələrində işə hazırlanırdılar.

Gənclər 18 yaşına çatdıqda hərbi və mülki təcrübə keçirdilər.

Bir zamanlar qədim Yunanıstanda quldarlar övladlarına qulluq və qaygı göstərməyi, onlarla oynamağı və məktəbə aparıb-gətirməyi öz qullarına tapşırardılar. Bu işlərlə məşğul olan qullara *paydaqoqos* (yunanca: *pais* – uşaqlar, *aqo* – aparıram) deyərdilər. Sonradan uşaqların, bilavasitə təlimi və tərbiyəsi ilə məşğul olan şəxsləri pedaqoq adlandırdılar. Həmin pedaqoq sözündən isə pedaqogika termini meydana gəldi. Qədim Yunanıstanda bir çox pedaqoji terminlər, o cümlədən schole – asudə vaxt, oyun), gimnaziya (gymnasion) – fiziki tərbiyə məktəbi və nəticədə sadəcə orta məktəb və s. təşəkkül tapdı.

Qədim dünyada bir çox ictimai xadimlər və filosoflar cəmiyyətin inkişafında və hər bir insanın həyatında tərbiyənin və təhsilalmanın roluna yüksək qiymət verirdilər. Vaxtilə Afina hökmdarı Solon (b.e.ə. 640-635-ci illər arası-559) xüsusi qanun imzalamışdı. Burada göstərilirdi ki, atalar əməyin bu və ya digər sahəsində öz oğlanlarının təliminə görə cavabdehdirlər. Ata oğluna bir sənət öyrətməsə, o, qocalanda oğul onu yedizdirə bilməz.

Zərdüşt peyğəmbər öz peşəsinə məsuliyyətsiz yanaşan müəllimləri tənqid edirdi. Bu barədə o deyirdi: "Pis müəllim şüuru korlar. Sözün mənasını çatdırmaz. Ağlın inkişafını dayandırar, təlim-tərbiyəni fəsada çevirər. Nəticədə həyatın təbii axarına və gözəlliyinə ziyan gətirər" (2, 106).

Filosoflar böyüyən nəsli yaxşı tərbiyə etməyin vacibliyini göstərməklə bərabər, müəllimlərdən, tərbiyəçilərdən bu sahədə ciddi məsuliyyət tələb edirdilər. Bu da səbəbsiz deyildi.

Platonun nöqteyi-nəzərincə, əgər başmaqçı pis usta olsa, dövlət bunun o mənada əziyyətini çəkəcək ki, vətəndaşların ayaqqabıları bir qədər pis olacaq. Əgər tərbiyəçi öz vəzifəsini pis yerinə yetirsə, ölkədə cahil adamların bütöv nəsli meydana gələcəkdir.

Tərbiyə təcrübəsinin qədim tarixi vardır. Tərbiyə ilk insanlarla bir yerdə tarixin səhnəsinə çıxmışdır. O zamanlar uşaqları pedaqogika olmadan tərbiyə və təlim edirdilər. Tərbiyə və təhsil haqqında elm çox-çox sonralar – fəlsəfə, ri-

yaziyyat, nücum (astronomiya) və s. elmlər artıq mövcud olanda formalaşdı. Fəqət xalq pedaqogikası həmişə mövcud idi, tərbiyə, təlim üsulları nəsillərdən nəsillərə yazılmamış qanunlarla, şifahi şəkildə ötürülürdü. Yəni sadə insanlar, əməkçi xalq tərbiyə etməyi, əmək, məişət, zehni və s. bu kimi müxtəlif bacarıq və vərdişləri aşılamağı, biliklər verməyi bir-birindən öyrənərək tətbiq edirdi. Oğul – atadan, qız anadan görüb-götürür, «xanım qız xalasına, xan oğlan – dayısına oxşamağa" çalışırdı. Ata-babalarımız təsadüfən demirdilər: "Ana qızına taxt verər, ata oğluna baxt", "Qız anadan görməyincə öyüd almaz, Oğul atadan görməyincə süfrə çəkməz" (3, 129) və s. və i.a.

Xalq pedaqogikası insanların mənəvi, ruhi və fiziki inkişafında mühüm əhəmiyyətə malik idi. Xalq hikmətini, tərbiyə sahəsində insanların əsrlər boyu qazandığı təcrübəni, fikir və ideyaları özündə birləşdirən xalq pedaqogikasında mənəvi, əmək, fiziki tərbiyənin orijinal və canlı sistemi formalaşmışdı. Təlim, təhsil və tərbiyənin Avropa sisteminin beşiyi qədim yunan fəlsəfəsidir.

Müxtəlif elm sahələrinin əmələ gəlməsinin başlıca səbəbi – həyatın tələbi olmuşdur. Məqam yetişdi ki, tərbiyə və təhsil insanın həyatında zərurətə çevrildi. Məlum oldu ki, gənc nəslin tərbiyə, təhsil və təlim məsələləri ilə hansı səviyyədə əhatə olunmasına əsasən, cəmiyyət sürətlə, yaxud tədrici inkişaf edir. Bütün bunlar nəzərə alınaraq, tərbiyə və öyrənmə təcrübəsinin, bilik, bacarıq və vərdişlərə yiyələnmə üsullarının ümumiləşdirilməsi, uşaqların cəmiyyətin həyatında yaxından iştirak etməsi və şəxsi həyata hazırlanması üçün xüsusi tədris-tərbiyə ocaqlarının yaradılması zərurətə çevrildi.

Qədim dünyanın daha çox inkişaf etmiş Misir, Hindistan, Çin, Yunanıstan və s. ölkələrdə təlim və tərbiyə təcrübəsinin təkmilləşdirilməsi, nəzəriyyənin işlənib hazırlanması problemi aktuallaşdı, təxirəsalınmaz vəzifəyə döndü. Qədim dünyada təbiət, cəmiyyət, təfəkkür və insan haqqında biliklər fəlsəfədə əks olunurdu və onda ilkin pedaqoji ümumiləşdirmələrə cəhd göstərilirdi.

Orta əsrlər dövrü V əsrdən XVI əsrədək sərt dəyənək (çubuq) intizamı dövrü kimi səciyyələnib. Şərqdə yeni cərəyan (induizm, buddizm, islam) genişlənib ki, məktəbdə öz əksini tapıb. Qərbi Avropada prixod (xristianlarda: aşağı kilsə təşkilatı və bu təşkilat üzvlərinin yaşadığı yer, məhəllə), monastr və kafedral məktəblər meydana gəldi ki, bu məktəblərdə, əsasən savad, dini ehkamlar, zəbur surəsinin və duaların oxunması öyrədilirdi. XIII-XIV əsrlərdə sənətkarların uşaqları üçün sex məktəbləri açıldı. Yalnız varlılar üçün nəzərdə tutulmuş Kildiya (1. orta əsrlərdə: Qərbi Avropada: tacirlər və ya sənətkarlar ittifaqı; 2. tacirlik dərəcəsi) – (tacirlərin birliyi) məktəbi açırlar. Həmin məktəblərdə təlim praktik istiqamətli idi.

İntibah dövrü. XV əsrdən başlayan dövr elm və texnikanın tərəqqisi ilə səciyyələnir. Antik mədəni irsə marağın yaranması, təlimə canlı marağın stimullaşdırılması, təlimin əqli, bəxtiyar prosesə çevrilməsi baş verir. Y.A. Komenski öz əsərlərində intibah dövrünün ideyalarını daha aydın və tam şəkildə ifadə etmişdir. O, antik fəlsəfənin, dinin və intibah ideyalarının qarşılıqlı əlaqələrinə - panfosiyaya əsaslanırdı. Pansofiya mədəniyyətlə əldə olunmuş bütün bilikləri ümumiləşdirmiş və ana dilində bu bilikləri ictimai, irqi və dini mənsubiyyətindən asılı olmadan bütün insanlara çatdırmışdı. Y.A. Komenski təlimin dörd mərhələsinə diqqəti yönəldirdi: 1) avtopsiya – müstəqil müşahidə; 2) avtopraksiya – praktik fəaliyyət; 3) avtoxressiya – yeni vəziyyətlərdə biliklərin, bacarıq və vərdişlərin tətbiqi; 4) avtoleksiya – öz fəaliyyətinin nəticələrini müstəqil şərhetmə bacarığı.

Y.A. Komenski fizika, həndəsə, geodeziya, coğrafiya, astronomiya və tarix dərslikləri hazırlamışdı. Onun qənaətincə, pedaqogika fəlsəfəyə, sosiologiya və psixologiyaya əsaslanmalıdır.

Antik dövrdən pedaqogika, həmçinin digər elmlər fəlsəfə sistemlərinin hissələri olub. Pedaqogika uşağı düzgün tərbiyə etmək üçün təhsil alanın psixoloji xarakteristikasını bilməlidir. Ən böyük alimlər və pedaqoqlar ilk növbədə filosof və psixoloq olmuşlar. Sokrat, Platon, Aristotel, ibn Sina, Bəhmənyar və bir çox qeyriləri məşhur filosof olmaqla yanaşı çox yaxşı, təcrübəli müəllim idilər. Platon Sokratın, Aristotel Platonun, Bəhmənyar ibn Sinanın şagirdləri olmuşlar.

Pedaqogika uzun müddət fəlsəfənin mühüm tərkib hissəsi olmuş, onun bətnində ətəqana dolmuş, sonralar, yəni XVII əsrdə müstəqil

elm kimi özünü təsdiq etmişdir. Bu gün də pedaqogika min tellərlə fəlsəfə ilə bağlıdır. Bu elmlərin hər ikisinin obyekti insandır. Hər ikisi şəxsiyyətin həyatını, inkişafını və fəaliyyətini öyrənir. Bəzi pedaqoqların (İ.P. Podlası və b.) qənaətincə, pedaqogikanın fəlsəfədən ayrılması və onun elmi sistemə salınması çex pedaqoqu Y.A. Komenskinin, bəzi pedaqoqlara (İ.F. Xarlamov və b.) görə, ingilis təbiətşünası F. Bekonun (1561-1626) adı ilə bağlıdır. Y.A. Komenski "Böyük didaktika" əsərini 1654-cü ildə yazaraq Amsterdamda nəşr etdirmişdir. Həmin əsər ilk elmi-pedaqoji əsərlərdəndir. Bu kitabda öz əksini tapmış ideyaların əksəriyyəti bu gün də əhəmiyyətini özündə saxlayır. F. Bekon isə, «Elmlərin dəyəri və onların inkişafı» əsərini 1623-cü ildə yazmış, müstəqil elmi fənlər olmağa layiq biliklərin (elmin) digər sahələri arasında pedaqogikanın adını da çəkmiş, lakin onu «oxunun təlimi sənəti» kimi nəzərdən keçirmişdir. Beləliklə, F. Bekon cəmiyyətin inkişafında pedaqogikanın son dərəcə vacib rol oynadığını təsdiq etmişdir. Diqqət edək: əgər F. Bekon pedaqogikanı biliklərin müstəqil sahəsi elan etmişdirsə, Y.A. Komenski özünün fundamental nəzəri əsərləri ilə onun elmi statusunu möhkəmləndirmişdir.

**Problemin aktuallığı**. Pedaqogika elminin daha da inkişaf etdirilməsi, gənc nəslin tərbiyə olunmasında və təhsilin səmərəli təşkilində onun istiqamətləndirici imkanlarından faydalanmaq vacibdir.

**Problemin yeniliyi.** Şəxsiyyətin təhsili, tərbiyəsi, təlimi və məktəbin idarə edilməsi haqqında elm statusunu qazanmış pedaqogikanın əsas məsələləri diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti.** Şəxsiyyətin təhsili, tərbiyəsi, təlimi və məktəbin idarə edilməsi haqqında elm olan pedaqogikanın əsas məsələləri barədə ali məktəb tələbələrinə, müəllimlərə, gənc tədqiqatçılara zəruri məlumat verəcəkdir.

**Ədəbiyyat:**

1. K.D. Uşinski. Seçilmiş pedaqoji əsərləri. Bakı: Azərnəşr, 1953.
2. Az söylə, söz söylə: Şərqin şifahi və yazılı abidələrində tərbiyəvi fikirlər. Bakı: Maarif, 1993.
3. Kitabi-Dədə Qorqud. Bakı: Yazıçı, 1979.

E-mail: a.abbasov@arti.edu.az

**Rəyçilər:** *ped.ü.elm.dok.,prof.* H.Ə. Əlizadə,
*ped.ü.elm.dok.,prof.* H.H. Əhmədov